**Azərbaycan Respublikası vətəndaşlarının xaricdə doktorantura səviyyəsi üzrə təhsili üçün prioritet ixtisas istiqamətləri və ixtisaslarının müəyyən edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 noyabr tarixli 711 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2019–2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planının 6.2.5-ci və 6.2.6-cı yarımbəndlərinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"2019–2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"na əsasən Azərbaycan Respublikası vətəndaşlarının xaricdə doktorantura səviyyəsi üzrə təhsili üçün aşağıdakı prioritet ixtisas istiqamətləri və ixtisasları müəyyən edilsin:

**1. Təbiət ixtisasları istiqaməti:**
1.1. riyaziyyat;
1.2. mexanika;
1.3. astronomiya;
1.4. fizika;
1.5. kimya;
1.6. biologiya elmləri;
1.7. yer elmləri;
1.8. coğrafiya.

**2. Kənd təsərrüfatı ixtisasları istiqaməti:**
2.1. aqrar elmlər.

**3. Səhiyyə və rifah ixtisasları istiqaməti:**
3.1. tibb elmləri;
3.2. əczaçılıq elmləri;
3.3. səhiyyənin idarə edilməsi.

**4. Texniki və texnoloji ixtisaslar istiqaməti:**
4.1. texnika elmləri.

**5. İqtisadiyyat və idarəetmə ixtisasları istiqaməti:**
5.1. iqtisad elmləri.

**6. Təhsil ixtisasları istiqaməti:**
6.1. pedaqogika;
6.2. psixologiya;
6.3. təhsilin idarə edilməsi.

**7. Humanitar və sosial ixtisaslar istiqaməti:**
7.1. tarix;
7.2. sosiologiya;
7.3. hüquq elmləri.

**Azərbaycan Respublikasının Baş naziri Novruz MƏMMƏDOV**

Bakı şəhəri, 27 may 2019-cu il
241